Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

# “Biz Kanadada Azərbaycan Dünyasının yolçularıyıq”

## Həsən Dadibar: “Bakıda gördüklərim bütün diləklərimin bir gerçəkliyi idi”

## “Bizim ailəmiz Bütöv Azərbaycanı təmsil edən bir düzənə malikdir”

**Həmsöhbətimiz əslən Güney Azərbaycandan olan və Kanadanın Vankuver şəhərində yaşayan Həsən Dadibardır. O, hər zaman Azərbaycanımızın ruhu ilə yaşayan soydaşımız, Güney Azərbaycanda və Quzey Azərbaycanda yaşamış, Vətənimizin hər iki tayının ağrısını-acısını, xoşbəxtliyinin dadını görmüş nadir insanlarımızdan biridir. Güney Azərbaycanın füsunkar bölgəsi olan Tikab şəhərində anadan olmuşdur. Zahiri baxımdan sakit görünən bu insanın qəlbində Azərbaycan milli davası alovlu vulkan kimi püksürməkdədir. Harada yaşamasından və fəaliyyət göstərməsindən asılı olmayaraq, vətənimizin hər iki tayının haqq səsi uğrunda mübarizə meydanlarında ön cərgələrdə addımlayır.**



**- Həsən bəy, necə oldu ki, siz Azərbaycan davasında iştirak etməyə başladınız?**

- *Öncə onu qeyd edim ki, uşaq vaxtımdan ilk dəfə məktəbə gedən zaman suya “ab”, çörəyə “nan” deməyə məcbur olduğum üçün buna etiraz etmişdim.* Axı evimizdə, qohumlarımız arasında, eləcə də yaşadığım Tikab şəhərində hamının danışdığı və anladığı bir dil, yəni Türk dilinin nədən təhsildə yasaq olduğunu anlamağa çalışırdım. Məktəbimizin yuxarı siniflərində oxuduğum zaman farslara məxsus bölgələrin yüksək səviyyədə inkişaf etməsi, eləcə də Güney Azərbaycanın sosial-iqtisadi, milli hüquqları baxımdan çox geridə qalmasını incələməyə başladım. Daha sonra ailəmizdə və eləcə də qohumlarımızın arxivlərində gizli şəkildə saxlanılan ana dilimizdəki köhnə kitabları və fotoları əldə etdim. Bütün bunlar 21 Azər Milli Hökumətinin tarixi yadigarları idilər. Böyüklərimiz bizə vətənimizin Quzeyi haqqında az qala pıçıltı ilə danışırdılar ki, orada, yəni paytaxt Bakı olmaqla, Quzey Azərbaycanda xalqımız bütün milli haqlarına sahibdir. Daha sonralar isə, gecələr gizli şəkildə peyk antenlərindən istifadə etməklə Azərbaycan televiziyasını izləyirdik. Ana dilimizdə oxunan mahnılar, musiqilər və şirin danışıq tərzi sanki bizim üçün bir yuxu kimi görünürdü. Bunları seyr etdikcə, içimizdə dərin bir sirli ruhumuz qaynayırdı. Beləcə özüm də bilmədən dostlarımızla milli düşüncə və onun iradəsinin təsiri ilə hərəkət etməyə başladıq. Gecələr öncədən hazırladığımız elanları küçələrə yapışdırırdıq. “Ana dilində mədrəsə, olmalıdır hər kəsə” şüarları ilə xalqımızın milli ruhunu oyandırmağa başladıq. Daha sonra isə rejimin əliqanlı cəlladları və milli manqurtlarımız bizləri təqib etməyə başladılar. Günahasız yerə həbslər, ağır və üzücü cərimələr, edamlar sayəsində bir çox dostlarımızı itirdik. Mən məcbur olub Quzey Azərbaycana mühacirət etdim. Uzun müddət Bakıda yaşadım. Burada hər halımdan məmnun idim. Çünki, Bakıda gördüklərim bütün diləklərimin bir gerçəkliyi idi. Ən adi işlərdə çalışdım. Fəhlə və sair sahələrdə işləməklə həyatımdan hər zaman məmnun qaldım. Sonra isə siyasi mühacir kimi BMT-nin dəstəyi ilə Kanadada məskunkaşmalı oldum. Həyat yoldaşım isə Quzey Azərbaycandandır. Beləliklə bizim ailəmiz Bütöv Azərbaycanı təmsil edən bir düzənə malikdir.

**- İndi sizin üçün Kanada bir ölkə kimi vətən sayılırmı? Çünki, bəziləri daha rahat yaşamaq üçün qürbətə üz tutur və sonra hər şeyi olmamış kimi unudur.**

- Biz elə bir tərbiyənin yiyəsi deyilik ki, harada yaşamağımızdan asılı olmayaraq, çox asanlıqla Vətən dediyimiz müqəddəs torpaqlarımızı unudaq. Bu sözlər izah olunası və ya ifadə ediləcək anlam deyil. Bu bir ruhdur, mədəniyyətdir, özümüzü tanımaqdır. Qanımızın, düşüncələrimizin və dəyərlərimizin uca zirvəsidir. Harada yaşamağımızdan asılı olmayaraq, biz hər zaman azərbaycanlı kimi özümüzü hiss edirik. Bu qürbət eldə də Azərbaycanımızın dəyərləri ilə yaşayırıq. Həyatımızda elə bir gün olmur ki, vətənlə nəfəs almayaq, onun taleyi ilə ilgilənməyək. İndi elə bir zamandır ki, harada və necə yaşamağından asılı olmayaraq, peyk anten vasitəsilə uşaq vaxtımızda olduğu kimi Bakıdakı televiziya kanallarını izləyir və internet resursları vasitəsilə hər şeydən bilgi alırıq.

**- Sizcə, diaspor anlayışı nədir? Mühacir kimi yaşadığınız uzaq şimal ölkəsində Azərbaycan dünyası ilə necə nəfəs alırsınız?**

- Kanadada yaşayan azərbaycanlıların sayı başqa ölkələrə nisbətən çox azdır. Demək olar ki, bizlər bir-birimizlə telefon və internet vasitəsilə əlaqələr saxlayırıq. Azərbaycan səfirliyi isə bizim qürur mənbəyimizdir. Səfirliyin üzərində dalğanan bayrağımızla bütün dünya azərbaycanıları kimi bizlər də böyük bir qürur hissi keçiririk. Bundan əlavə, hər il “Dünya Azərbaycanlılarının Həmrəyliyi”, “Qanlı 20 Yanvar Faciəsi”, “Xocalı Soyqırımı”, “Novruz Bayramı”, “28 May Milli İstiqlal Günü” və başqa tədbirləri keçiririk. Artıq böyük bir ənənəyə çevrilən bu mərasimlərdə Azərbaycan dövlətinin haqq səsini 25 milyona yaxın olan Kanadanın ən iri şəhərləri kimi tanınan Monreal, Toronto və Vankuverdə duydurmağa çalışırıq. Əhalinin çoxunu təşkil edən ingilis, alman və fransız, italyan, rus, ukrain və tatarlar arasında geniş təbliğat işləri də aparırıq. Ötən illərdən fərqli olaraq, bu prosesdə bizimlə soydaş olan Anadolu, Krım, Doğu Türküstan, İraq-Türkman, Qaraçay Türkləri də Azərbaycanın haqq səsinə çox möhtəşəm şəkildə dəstək verirlər. Hər il Kanada parlamentinin qarşısında “Xocalı Soyqırımı”nın tanıdılması üçün mitinqlət təşkil edirik. Bununla yanaşı, ölkənin bütün dövlət qurumlarına elektron poçt vasitəsilə məktub göndəririk. Bir-birindən uzaq olan şəhərlərdə yaşamağımıza baxmayaraq, kimin toyu və ya başqa bir mərasimi olursa, hamılıqla iştirak edirik. Burada azərbaycanlı ziyalıların da sayı xeyli çoxdur. Kanada Yazıçıları Pen Klubunun sədri əslən Güney Azərbaycandan olan və dünyada məşhur yazıçı kimi tanınan Rza Bərahənidir. Onun nüfuzu sayəsində indi bu ölkənin siyasi çevrələri bir sıra yalnışlıqları etiraf etmək zorunda qalıb. Kanada parlamentində 1996, 2000 və 2004-cü illərdə ermənilər uydurma “soyqırımı tanıma” sənədləri ilə iddia irəli sürüblər və bu saxtakarlıq tanınmış sayılır. Bunun qarşılığında isə bizlər Azərbaycanın ərazilərinin, xüsusilə də Qarabağın Ermənistan tərəfindən işğal edilməsi, “Xocalı Soyqırımı”nın törədilməsi faktlarını ortaya qoyuruq. Dünyanın məşhur alimlərindən Erik Fayql, Jorj de Malevil, Feiks Çerçivadze, Justin McCarthy, Günter Levi, Leon Ceatan, Səməd Sərdarniyar və başqalarının elmi əsərlərini ingilis, alman və italyan dillərinə çevirib yayırıq.



Kanada. Vankuver şəhərindəki Azərbaycan diasporunun üzvləri





Azərbaycan diasporunun Kanada parlamenti qarşısında Xocalı Soyqırımının tanınması ilə bağlı mitinqi

**- Azərbaycana necə, rahat gedib-gələ bilirsinizmi?**

- Əlbəttə. Uzaq məsafə olsa da, ildə bir dəfə tətil vaxtlarımızı Bakıda və Azərbaycanın başqa bölgələrində keçirməyi daha üstün sayırıq. Fikrimizcə, millətini sevən, ona dəyər verən hər bir soydaşımız tətil və istirahət günlərini öz vətənində keçirməlidir. Tətil vaxtı xərcləyəcəyəm vəsaitin vətən üçün nə qədər faydalı olmasının mənasına varmalıdır. Hər bir xərclənən vəsait həm də Azərbaycan dövlətinin büdcəsinə daxil olan vergi deməkdir. Mehmanxanalar, istirahət mərkəzləri, turizm məkanları məhz bizlərin sayəsində neçə-neçə soydaşımızın həm də gəlir və yaşamaq mənbəyidir. Biz çox istərdik ki, ölkəmizdə başqa dövlətlərdə olduğu kimi turizm inkişaf etsin. İndi dünyanın bir çox ölkələrinin əsas gəlir mənbəyi həm də turizm və turizm sənayesi sayəsində inkişaf edir. Azərbaycanın təbiəti, onun coğrafi imkanları o qədər zəngindir ki, bunu dəyərləndirmək lazımdır. Bura həm də hər bir azərbaycanlının ruhunun məkanıdır.

**- Diaspor olaraq, öz milli kimliyinizi qorumaqla yanaşı, övladlarınızı da buna alışdıra bilirsinizmi? Çünki, yeni nəsil bir qədər fərqli mental dəyərlərə malik olur.**

- Əlbəttə bu yöndə problemlərin olması danılmazdır. Ancaq, bizlər də lazım olan addımı atırıq. Çalışırıq ki, övladlarımız ana dilini və bizim milli mədəniyyətimizi mümkün qədər daha çox mənimsəsin. Ən azından gündə bir neçə saat televiziya kanallarının seyr edilməsi, ailədə öz aramızda ana dilində danışmaq vərdişlərinin inkişaf etdirilməsi kimi gərəkən addımları atırıq. Xüsusilə yay tətilini Azərbaycanda keçirməklə övladlarımızın burada özlərinə çoxlu dost qazanmasıının psixoloji önəmi vardır. Beləliklə milli kimlik düşüncə tərzi də inkişaf edir. Müasir elm və həyat tərzi elə sürətlə inkişaf edir ki, bəzən biz özümüzdə bir çox çətinlikləri yaşamalı oluruq. İndi savadı olmayanın işlə təmin edilməsi çox çətinləşib. Bizlərin yeni baxışlarımızda yer alan əsas məsələlərdən biri də diaspora məxsus ailələrdəki yeni nəslin savadlı kadr kimi yaşadığı ölkə ilə vətənimiz Azərbaycan arasında intellektual səviyyədə körpü rolunu oynamasıdır. Azərbaycana olan maraqları gücləndirmək, inkişaf etdirmək başlıca strateji hədəflərdən birinə çevrilməlidir. Bu həm də yeni baxışların yanaşılması texnologiyasının üstün səviyyəyə qaldırılması deməkdir. Yurd dışında yaşayan imkanlı soydaşlarımızın Azərbaycanın inkişafı üçün yatırımlar qoymalarına həvəsləndirilməsi, bu prosesdə maraqlı olmalarına imkanların yaradılması diaspor və vətən münasibətlərində incə strateji hədəflərə çevrilməlidir. Yeni nəslin mental dəyərləri və baxışlarındakı psixoloji özəlliklərin Azərbaycanla uzlaşım səviyyəsində inkişafı həm də, dünya ilə iç-içə olmanın üstünlükləri deməkdir. Bu gün Azərbaycanın tarixi coğrafi sərhədlərindən kənarda Avropa, Avstraliya, Asiya və Amerika qitələri daxil olmaqla soydaşlarımızın ümumi sayı beş milyona yaxınlaşmaqda və onların fərqli mental dəyərləri ilə həyat normaları formalaşmaqdadır. Həyat şəraitim elə gətirdi ki, Kanadada adi bir aşbaz kimi fəaliyyət göstərirəm. Çünki, ali təhsil almaq imkanlarım heç zaman olmadı. Ancaq, oğlumun və onun gələcəkdə özü və Azərbaycan dövlətçiliyi üçün faydalı ola bilməsi yönündə bütün bunları bir hədəf olaraq yetişməsi yönündə fikirlərim vardır. O, da sağ olsun bütün bunları indiki yeniyetməlik çağında dərk edir. Çoxları elə düşünməsinlər ki, qürbətə gedənlər unudulmaq və vətənə əlvida demək üçün yola çıxmışlar. Şəxsən Kanadada yaşayan bir çox dostlarım daim özlərini Azərbaycan dünyasının yolçuları kimi hiss edirlər. Bizlər qürbətin acısının nə demək olduğunu çox yaxşı dərk edirik. Heç kimsə gəlib Azərbaycan dövlətinin inkişafı yolunda özünü fəda etməyəcək. Bunu bizlər, yəni Azərbaycan xalqı olaraq etməliyik. Harada yaşamağımızdan asılı olmayaraq hər zaman vətən sevgisi və qürurunu uca tutmaqla irəliyə baxmalıyıq. İndi Quzey Azərbaycan bir dövlət olaraq gələn il dövlət müstəqilliyinin 25 illiyini qeyd etməyə hazırlaşır. Bunca hər bir azərbaycanlı üçün fəxr ediləsi nə ola bilər? Dövlətimizin müstəqilliyinin yaşaması və inkişaf etməsi hər birimizin qürur mənbəyidir.

**Söhbətləşdi:**
**Ə. Yusifoğlu**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında